# MÜQƏDDƏS KİTABLARDA TÜRKLƏR HAQQINDA

KAZIMI P.F.
pkazimi@mail.ru

*Türk xalqlarının kitab və kitabxana mədəniyyətinin mənbəyi böyük coğrafi arealda mədəni mərkəzlər, görkəmli şəxsiyyətlər, şairlər, mütəfəkkirlər, hökmdarlar, elmi, din və təhsil mərkəzləri, eləcə də ayrı-ayrı türk xalqları, boyları və dövlətləri olmuşdu.*

***Açar sözlər.*** *Türklər, müqəddəs kitablar, Səhih əl-Buxari, hədislər.*

Türk xalqlarının mənşəyi haqqında M.Kaşqari yazır. -"Türk: əleyhissalam Nuhun oğlunun adıdır.Bu ad Nuh oğlu Türkün övladlarına tanrının verdiyi addır..."Türk"sözü Nuhun oğlunun adı kimi işləndikdə tək bir adamı bildirir, övladlarının adı olanda "bəşər" sözü kimi coxluq və cəm bildirir." (II cild s.357-358) M.Kaşqariyə etimad etməməyə heç bir əsasımız yoxdur.Mənbəyin mövzusu,quruluşu və əhəmiyyəti haqqında ayrıca xeyli əsərlər yazılıb.

Türk xalqlarının tarixini və bu tarixin mənbələrini araşdırarkən Ərəb və Fars qaynaqları ilə birlikdə İslam dininin iki böyük və mötəbər mənbəyi olan Quran və Hz. Peyğəmbərin hədislərinə baxaraq bu iki mənbədə türklərdən nə dərəcədə bəhs edildiyini müəyyənləşdirmək zəruridir.

Quran-i Kərimdə, şübhəsiz, digər millətlərdən olduğu kimi, türklərdən də birbaşa bəhs edilməmişdir. Lakin tarixi inkişafda mütəxəssislərin bir qrupu Quran-i Kərimdəki bəzi ayələrin türklərə işarə etdiyini iddia edirlər.

Təhdit ayələri kimi qeyd olunan ayələrdə Allah; dinə haqqı ilə xidmət etməyən və təbliğ vəzifəsini kifayət qədər yerinə yetirməyən ərəbləri təhdid etməkdə və belə davam etdiyi halda onların yerinə başqa bir millət gətirəcəyini buyurmuşdur; Maidə surəsi 54. ayə belədir: "Ey inananlar! Sizdən kim dinindən dönsə, Allah irəlidə onun yerinə elə bir qövm gətirər ki, Allah onları sevər. Onlar da Allahı sevərlər. Onlar möminlərə qarşı boyunları bükük və təvazökardırlar. Kafirlərə qarşı başları dik, təmkinli və güclüdürlər. Allah yolunda cihad edərlər, qınayıb ayıblayanların ayıblamalarından narahat olmazlar. İşdə bu Allahın elə bir lütfüdür ki, onu istədiyinə verər. Allahın lütf və ehsanı genişdir və hər şeyi biləndir…"

Quranın tövbə surəsində də bənzər bir ayə ilə ərəblərə belə xəbərdarlıq edilir; "Əgər (İslam yolunda cihada) el birliyi halında çıxmazsınızsa (Allah), sizi çox kədərli bir əzaba düçar edər. Yerinizə sizdən başqa (Mücahid) bir qövmü gətirər. Siz ona heç bir şeylə zərrə qədər zərər verməzsiniz. Allah hər şeyə qadirdir".

Şübhəsiz, türklər haqqında bəhs edilən Hz. Peyğambərə aid olan hədislər də mövcuddur. Bu hədislərin bir çoxu uydurmadır. Hz. Peyqəmbərə ithaf edilən uydurma hədislərə "Mövzu Hədis" deyilir. Mövzu hədislər, ümumiyyətlə, bir mənbə tərəfindən rəvayət edilmiş və "raviləri", yəni rəvayət edənləri etibarlı hesab edilməmişlər. Türkləri "Yəcüc-Məcüc" deyə xarakterizə edən və onları zalım göstərən bu tip "Mövzu Hədis"lər bəzi ərəblərin qısqanclıq duyğularının bir məhsuludur. Onsuz da bu cür hədislər mötəbər və əhəmiyyətli hədis kitablarına daxil edilməmişdir.

Burada hədislərin səhih olub olmadıqlarından daha çox, bundan 1100-1200 il əvvəlki Ərəbistan coğrafiyasında türklər haqqında nə kimi məlumatların olduğu mövzusunu araşdırmaq vacibdir.

Qeyd olunduğu kimi, Hz. Peyğəmbərdən hədis olaraq rəvayət edilən sözlərin bir çoxu, İslam dünyasında mötəbər hədis kitabları olaraq qəbul edilən" Kütübbis Sittə" də rəvayət edilmişdir. Kütübbis Sittə; 6 hədis kitabıdır ki, bunlar Səhihi Buxarı, Səhihi Müslim, Süneni Nesai, Süneni Əbu Davud, Sünəni Tirmizi və Sünəni İbn Mace.

İslam alimləri bu hədis kitablarından ən mötəbər olanlarının əvvəlcə Səhihi Buxari və Səhihi Müslim olduqlarında umumi razılığa gəlirlər. Etibarlılıq baxımından bir hədis, bu iki hədis kitabında təkrar edilirsə, ən mötəbər hədis olaraq qəbul edilir. Daha sonra Səhihi Buxaridə qeyd edilənlər, sonra Müslimdə zikr edilənlər və digərlərində zikr edilənlər, etibarlılıq baxımından sıralanır.

Türklər haqqında rəvayət edilən ən məşhur hədis "Türklər sizə toxunmadıqca siz də onlara toxunmayın" hədisidir.

Hz. Peyğəmbərin hədislərindən bəhrələnərək İslam aləmi türklərdən bəhs edərkən onları "Qandıra Oğulları" olaraq zikr etmiş və hətta onların fiziki quruluşları ilə əlaqədar maraqlı məlumatlar ortaya çıxmışdır.

Hz. Peyğəmbərin türklər haqqındakı müsbət sözləri, onların islam dünyasının üzərindəki hakimiyyətinin uzun olacağı istiqamətindəki bəyanı və türk dilinin mütləq öyrənilməsi istiqamətindəki tövsiyələri Ərəb dünyasında müsbət təsir buraxdığı kimi, qısqanclığa da səbəb olmuş və türklər əleyhinə mənfi məlumat və düşüncələr yaymaqla bir çox "uydurma hədis"lərin rəvayət edilməsinə də səbəb olmuşdu.

Digər tərəfdən, müsəlmanlarla türklərin mədəni əlaqələrinin Hz. Peyğəmbər dövründən başladığı və Hz. Peyğəmbərin 627-ci ildə cərəyan edən Xəndək döyüşünü bir türk çadırından kecirdiyi məlumdu. Hz. Peyğəmbərin türkləri tanıması və hətta onları yaxından tanıması son dərəcə normal idi. Çünki Hz. Peyğəmbər dövründə Göktürk Xaqanlığı İpək yolunun yeganə hakimi idi və Hz. Peyğəmbər də özünə vəhy gəlməmişdən əvvəl ticarətlə məşğul olmuşdu.

Bu səbəbdən də Hz. Peyğəmbər hədislərində türklərin mərdlikləri və qəhrəmanlıqları da tərif olunur.





Hz. Peyğəmbərin hədisləri, türk xalqları tarixi baxımından ən əhəmiyyətli mənbələr arasındadır. Xüsusilə Hz. Peyğəmbərin türklərin görkəmini ifadə edən hədislərindən bir neçəsini xatırladaq.

"Əmr B. Tağlıbdən rəvayət edildiyinə görə; Hz. Peyğəmbər buyurmuşdur ki, Qiyamətin qopmasının şərtlərindən biri sizlərin tükdən çarıqlar geyən bir qövm olan türklərlə döyüşmənizdir. Yenə qiyamətin digər bir şərti isə sizlərin geniş üzlü belə ki üzləri örs üstündə döyülmüş kimi olan dərilərlə örtülmüş möhkəm qalxanlara sahib türklərlə döyüşmənizdir.

Yenə bənzər bir hadisə Əbu Hureyrden rəvayət edilmişdir: "Hz. Peyğəmbər buyurdu ki, sizlər kiçik qıyıqgözlü, qırmızı bənizli yatık burunlu, çöhrələri sanki örs üstündə döyülmüş və üzləri dərilərlə örtülmüş möhkəm qalxanlar kimi bir qövm olan türklərlə savaşmadıqca qiyamət qopmayacaq. Yenə sizlər tükdən çarık və corablar geyən bir qövmlə savaşmadıqca qiyamət qopmayacaq."

Həm Buxari və həm də Müslimdə bu hədisin və ona bənzər bir çox hədislərin dəyişik rəvayətləri var. Bu hədislərdən yola çıxaraq Hz. Peyğəmbərin daha əvvəldən qarşılaşıb hədislərində tərif etdiyi türk tipinin "Qıyıqgözlü, qırmızı bənizli, dəyirmi və geniş üzlü" olduqlarını, bu türklərin çox güclü və heybətli bir quruluşa sahib olduqları, bədən strukturlarının düz və mütənasib olduğu, çadırda yaşadıqları, tükdən toxunmuş paltarlar geydikləri və tükdən hazırlanmış çadırlarda yaşadıqları aydın olur.

Bu tip Türkün - Moğol və ya Qıpçaq tipi olduğu bu gün Qazaxıstan və ya Qırğızıstanda yaşayan türklərə təmamilə uyğun gəldiyi görünür. Bundan başqa, Hz. Peyğəmbərin möcüzəvi bir şəkildə özündən sonrakı türk-Ərəb siyasi əlaqələrinə də yol göstərən hədislər də zikr etdiyi məlumdur.

Məsələn, hədislərdən birində Hz. Peyğəmbər: "Sizlər şübhəsiz qıyıqgözlü bir qövm olan türklərlə döyüşəcəksiniz. Onlar sizləri üç dəfə sürüb qovacaqlar və sonda sizlərə Ərəbistan yarımadasında yetişəcəklər. Birinci zəbtdə onların qarşısından qaçanlar mütləq bir fəlakətdən xilas olacaqlar. İkinci təqibdə isə bəziləriniz qaçıb xilas olacaq və bəziləriniz isə həlak olub gedəcəklər. Üçüncüdə isə onların zəbtlərinin kökü kəsiləcək"

Hədis kitablarında bu hədis də bir çox şəkildə rəvayət olunur . Nuaym b. Hammad bu hədisin davamının belə olduğunu söyləyir; "...üçüncü zəbtdə isə onların kökləri kəsiləcəkdir. Bax onlar türklərdir. Nəfsim yeddi qüdrətində olan Allaha and içərəm ki türklər atlarını müsəlman məscidlərinin dirəklərinə bağlayacaqdır."

Hz. Peyğəmbər başqa hədislərində də türklərdən bəhs edərkən onların qandıra soyundan gəldiyini söyləyir. "Türklər sizə toxunmadıqca sizdə onlara toxunmayasınız. Çünki Qandıra oğulları ümmətinə Allahın verdiyi mülk və səltənəti əllərindən çəkib alacaqlar". Qandıra soyu haqqında Ərəb qaynaqları dəyişik fikirlər irəli sürürlər. Bəzi Ərəb müəlliflərinə görə, qandıra Hz.

İbrahimin nökərlərindən birinin adı idi. Onlara görə, Hz. İbrahimin bir çox övladı olmuşdu. O uşaqlardan birinin adı da türk idi. Məşhur Ərəb ədibi Cahız bunlardan biridir. Cahız "Fezailül etrak" adlı kitabında türklərdən sevgi və həvəslə bəhs edərkən bu iddiası ilə türklərin soyunu Ərəblərə söykəməyə calışır.

Hz. Peyğəmbər dövründən sonra da İslam dünyasının türklərə baxışı olduqca müsbət olmuşdur.Kərbala hadisəsinin ən şiddətli bir mərhələsində 7 türk döyüşçüsü Hz. Hüseynin yanına gələrək onu özləri ilə birlikdə türklərin yaşadığı bölgələrə getməsi üçün razı salmağa çalışmışlar. Hz. Hüseyn də Türk cəngavərlərinin bu təklifinə təşəkkür edərək oğulu Zeynel Abidini işarə etmiş və "Mən şəhid olduğum zaman onu götürüb aparın" demişdir.

Bir çox şiə məzhəbi ilk mənbələrində "Biharul -ənvar", "Mən lə yahduruhu əl-fəqih", "Usulu kafi", şiə hədis mənbələri və "Nəhcul bəlağə"də də türklər haqqında maraqlı məlumatlar verilir. Məsələn, Əli Kuraninin "Qeybəti Numani" kitabından işarə etdiyi hədisdə İmam Sadiqdən (ə) belə rəvayət olunur: "Azərbaycan bizə hökmən lazımdır. Heç bir şey onun qarşısında duruş göstərə bilməyəcək..." ("Qeybəti Numani", səh.170)

Başqa bir hədisdə isə belə deyilir: "Türklər üçün iki qiyam baş verəcəkdir ki, onlardan birində Azərbaycan viran olacaqdır. Digər qiyam da Cəzirədən (Suriyadan) başlanacaqdır. Bu hadisə hicldə olan gəlinləri vəhşətə salacaqdır. Məhz bu zaman Allah Təala müsəlmanlara kömək edəcək, Allahın böyük qurbanlığıda onların arasında vücuda gələcəkdir". ("Əl-məlahimuvəl-fitən", səh.32)

İmam Əlinin (ə) "Nəhcül-bəlağə"də verilmiş bir xütbəsindən danışaraq yazılıb : "Sanki elə bir qövmü görürəm ki, onların üzləri çəkiclə döyülmüş qalxanlar kimidir. Onlar ipək və kətandan toxunmuş paltarlar geyinmiş, cins atları öz ardınca çəkirdilər. Orada o qədər ölüm və qətl hadisələri olacaqdır ki, yaralılar ölülərin cəsədləri üzərindən keçəcəkdir. Bu müharibədə qaçanların sayı əsirlərin sayından çox azdır".

Təəssüf doguran bir cəhəti də qeyd edək ki, muxtəlif hədis kitablarında hadisələr müxtəlif şəkildə nəql edilir və tərcumələr zamanı da müxtəlif fərqlər ortaya çıxır. Odur ki bir sıra mötəbər hədisləri mənbədə oldugu kimi təqdim edirik.

Əbu Hureyrə (ra) belə dedi: "Rəsulullah (Sallallahu Əleyhi və Səlləm) 'in: "Müsəlmanlar, türklərlə müharibə etmədən qiyamət qopmaz. Onlar, elə bir qövmdür ki, üzləri dəri üzərinə dəri örtülmüş qalxanlar kimidir. Kıl paltarlar geyərlər və qıl ayaqqabılar içində gəzərlər buyurdu.

"Buxari 2742,

دثنا علينعبدالله حدثنا سفيان قال الزهري عن سعيدبنالمسيب عن أبيهريرة رضياللهعنه
عنالنبي صلىاللهعليهوسلم قال):





لاتقومالساعةحتىتقاتلواقومانعالهمالشعرولاتقومالساعةحتىتقاتلواقوماكأنوجوههم المجانالمطرقة)
صحيحالبخاري.

Müslim 2912.

قالالنبي صلىاللهعليهوسلم: (إنمن أشراطالساعة أنتقاتلواقومايتنعلوننعالالشعروإنمن
أشراطالساعة أنتقاتلواقوماعراضالوجوهكأنوجوههم المجانالمطرقة) صحيحالبخاري.

Kiçik gözlü, qırmızı üzlü və surətləri qalın dəridən edilmiş qalxanlara bənzər türklərə qarşı döyüşlər etmədikcə hökm günü gəlmiş olmayacaq. (Buxari-K. Cihad 95,96; Müslim K. Fitan 63,64-66)

İndi hədislər haqqında məlumatı olanlar bunu qəbul edirlər ki: Buxari və Müslimin hədisləri səhihdir , müsəlmandırsa islam dünyasında ümumi qənaətə görə səhih hədislərə inanmaq lazımdır.

Konstantiniyye (İstanbul) mütləq fəth olunacaq. Onu fəth edən komandan nə gözəl komandandır və o əsgər nə gözəl əsgərdir. Buxari (ət-Trah -ul Kəbir, cild 1, qisim 2, səhifə: 81) Əhməd bin Hənbəl (Müsned IV/42, kahire 1313) əl-Hakim (əl-Müstədrək IV/42-422, Heydərabad 1335) Türk deyilən qövmlə döyüş edənə qədər qiyamət qopmaz: Əbu Davud; 4302, 4303, Müslüm; 1912, 2912, Nəsəi; 3179, 3197, İbn Macə; 4096, Tirmizi; 2312, Buxari; 6c . 2741, 7c . 3367, Türklər sizi tərk edib toxunmadıqca siz də onlara toxunmayın: Əbu Davud; 4302, Nəsəi; 3178, Amr bin Tağleb (ra) belə dedi: "Rəsulullah (Sallallahu Əleyhi və Səlləm): ' Şübhəsiz, sizin keçə ayaqqabılar geyən bir qövmlə döyüşmək qiyamət əlamətlərindəndir. Sizin , üzləri geniş və dəri üzərinə dəri örtülmüş qalxanlar kimi olan qövmlə döyüşmək qiyamət əlamətlərindəndir ' buyurdu. "

دثناالحَسَنعَنعَمْروبنِتَغلِب،قال: Buxari 2741
سَمِعْتُالنَّبِيَّصلىاللهعليهوسلميَقُولُ:(إِنَمِنْأَشْرَاطِالسَّاعَةِأَنْتُقَاتِلُوا قَوْمًا عِرَاضَالوُجُوهِ.
كَأَنَّوُجُوهَهُمُالمَجَانُّالمُطْرَقَةُ.
(وَإِنَمِنْأَشْرَاطِالسَّاعَةِأَنْتُقَاتِلُوا قَوْمًايَنْتَعِلُونَالشَّعَرَ) سننابنماجةبابالتركرقمالحديث (4098.
حدثنا سليمانبنحرب حدثنا جريربنحازم سمعت الحسن يقولحدثنا عمروبنتغلب قال (
سمعترسولالله صلىاللهعليهوسلم يقول بينيديالساعةتقاتلونقومًاينتعلونالشعروتقاتلونقوماكأنوجوههم
المجانالمطرقة )صحيحالبخاري.

Bu tərzdə daha bir çox hədis mövcuddur."Sizlər; türklərlə çarpışmadıkca qiyamət qopmayacaq "( Buxari, 4, s: 34, 35, 156, Səhihi Müslim, 17, 37, 38)"Türklər sizə toxunmadığı , hərb etmədiyi müddətcə əsla siz də türklərə toxunmayın !"( Nəsəi . Sünen 4 , s: 44)

Hz. Əbu Hureyre nəql edir : "Rəsulullah (əleyhissalatu vəssalam) buyurdu ki: " Ayaqqabısı tükdən olan bir qövmlə vuruşmayınca qiyamət qopmaz. Siz, üzləri örtüklü qalxanlar kimi, gözləri kiçik, burunları yastı olan bir qovmle vuruşmayınca qiyamət qopmaz. "[ Buxari, Cihad 95, 96, Mənaqib 25; Muslim, Fitən 62, ( 2912 ); Əbu Davud, Melahim 9, ( 4303, 4304 ); Tirmizi, Fitən 40, ( 2216 ); Nəsai , Cihad 42, ( 6, 45 ). } Muhaddisler, bu qövmün Türklər olduğu barədə həmfikirdilər. Buxarinin bu hədisi verdiyi

bablardan birinin adı; بابقتالالترك "Türklərlə Döyüş Babıdır (bölməsi). Hədisin burada yazılan mətnində Türk sözü keçməsə də , Buxarinin eyni babda qeyd etdiyi ardınca olan hədisdə Türk sözü də qeyd olunur: "Kiçik gözlü , qırmızı üzlü , yastı burunlu , üzləri örtüklü qalxanlar kimi olan, (tükdən paltar geyən və tük içərisində gedən) Türklərlə savaşmadığınız müddətcə qiyamət qopmaz". Hədisdə üzün qalxana bənzədilməsi Beyzavî'ye görə, üzün geniş və yumru olmasındandır. Ayaqqabılarının tükdən olmasında məqsəd, bəzi şərhçilərsə, saçlarının ayaqqabılarına dəyəcək qədər uzun olmasıdır. Bəziləri də: "Bunda məqsəd onların ayaqqabılarını hörülmüş (dolaşıq) tük və yundan etmələridir " demişdir. Ayaqqabılarının da tükdən olması , keçmiş dövrlərdə geyilən və tükü yolunmamış dəridən edilən çarığa işarə də ola bilər. İbnu Həcər bu hədisin şərhində türklərlə əlaqədar olaraq bu şərhi edir: " Səhabə zamanında bu hədis məşhur idi : اتركوالتركماتركوكم " Türklər sizi buraktıkça, siz də onları buraxın ( onlarla orada vuruşmayın ). "

Qeyd olunan materiallar öz dövrünün bir çox digər mənbələrindən daha çox mötəbər oldugu səbəbindən etimad etməməyə əsasımız yoxdu. Məlum olur ki, VII-VIII əsrlərdə türk xalqlarının nüfuzu böyük bir cografiyada yayılmışdı və bu xalq dunya gücləri sırasında hesab olunurdu.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Bakı,Azərnəşr, 2011, 348 s.*
2. *Sahihi Muslim.(Cevirəni Davutoglu A.) 4 cilddə. İstanbul, 1977.*
3. *Sahihi Buhari.(Cevirəni Miras K.) 4 cilddə. Ankara, 1969.*
4. *Kazımı P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyəti.Bakı, ABC, 2012,316 s.*
5. *Arıklı Erhan. Günümüzdəki türk xalqları və tarixləri.Ankara, 2007. 372 s.*
6. *Kazımı P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyətinin mənbəşünaslıgı. Bakı, 2014, 160 s.*
7. *Казими П.Ф. Гилмиянова Р.А. Библиотеки в социокультурном пространстве. Bakı ,BDU, "Kitabxanaşünaslıq və informasiya ". 2013 №2 (11), s. 58-66.*





## ТУРКИ В БОЖЕСТВЕННЫХ КНИГАХ

**Казими П.Ф.**

**Резюме**

*Статья расматривает источниковедческую информацию о Турках переданные через божественные книги. За основу взята информация из корана и из достоверных хадисов переданные в основном через Бухари и Муслима. Материалы изучается в историческом контексте.*

***Ключевые слова.*** Т урки, божественные книги, Сахих ал-Бухари, хадисы.

## TURKS DIVINE BOOKS

**Kazimi P.F**

**Summary**

*Article source-information system is considered Turks transmitted through divine books. It is based on information from the Koran and from the authentic hadiths transmitted mainly through Bukhari and Muslim. Materials have been studied in a historical context.*

***Key words:****Turki, divine books, Sahih al-Bukhari, Hadith.*